


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 13 (24.150)

*24 yanvar 2023-cü il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Naxçıvan məhsulları *“Beynəlxalq Yaşıl Həftə – 2023”* sərgisində nümayiş olunur




Yanvarın 20-dən 29-dək Berlin şəhərində “Beynəlxalq Yaşıl Həftə – 2023” kənd təsərrüfatı və qida sərgisi açılıb. Tədbirdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (Azpromo) nümayəndələri ilə yanaşı, Azərbaycan şirkətləri də iştirak edir. Dünyanın 70-ə yaxın ölkəsindən 1500-dən çox şirkətin iştirak etdiyi sərgidə “Made in Azerbaijan” vahid ölkə stendi altında şərab, qurudulmuş meyvələr, mineral sular, ət və ət məhsulları, duz, çay və qənnadı məmulatların istehsalı sahəsində fəaliyyət göstərən Azərbaycan şirkətlərinin məhsullarının nümayişi təşkil olunub.

Sərginin Azərbaycana aid pavilyonunda Naxçıvan Muxtar Respublikası üçün ayrılmış stenddə muxtar respub-




likada fəaliyyət göstərən 11 şirkətin 20 növdə və 42 çeşiddə məhsulu, həmçinin şirkətlərə aid məhsul kataloqları və “Naxçıvan Məhsulları İxrac Kataloqu” nümayiş etdirilir.

“Beynəlxalq Yaşıl Həftə”də “Badamlı Mineral Sular” Məhdud Məsuliyyətli Cəmiyyətinin və Babək “Sirab” Açıq Səhmdar Cəmiyyətinin mineral suları, Gəmiqaya Holdinq Şirkətlər İttifaqının şərabı, meyvə suları, halvası, “Şərur-3” MMC-nin spirtli içkiləri, “Naxçıvan Məhsulları” publik hüquqi şəxsin müasir şəkildə qablaşdırılan meyvə quruları, “Araz-3” MMC-nin alma sirkəsi, “Ləzzət Qida Sənaye” MMC-nin vafli, lokumu, “Naxçıvan Duz İstehsalı” MMC-nin duzu, “ENNA” MMC-nin enerji içkiləri, soyuq çayı, “Savalan-S” kiçik müəssisəsinin aromatlaşdırılmış içkiləri, “Müasir Məkan” ət və ət məhsulları müəssisəsinin ət konservləri sərgilənir. Naxçıvan şirkətlərinin məhsulları ziyarətçilər tərəfindən böyük maraqla qarşılanıb, tədbir iştirakçılarına muxtar respublikanın investisiya və biznes imkanları barədə, həmçinin kənd təsərrüfatı sahəsində istehsal olunan rəqabətqabiliyyətli məhsullarla bağlı məlumat verilib.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi və Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsmanın) Yaqub Budaqov adına Naxçıvan Psixi Xəstəliklər Dispanserində “İşgəncənin və qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Avropa Konvensiyası və onun nəzarət mexanizmi” mövzusunda tədbir keçirilib.*

## İnsan hüquqlarının beynəlxalq prinsiplər əsasında müdafiəsinə həsr olunmuş tədbir keçirilib



Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin əməkdaşı Səbuhi İbrahimov bildirib ki, “İşgəncə və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Avropa Konvensiyası” 1987-ci ildə Avropa Şurası tərəfindən qəbul olunub.

Konvensiya azadlıqdan məhrum edilmiş və ya azadlığı məhdudlaşdırılmış şəxslərlə pis rəftarın qarşısını almaq üçün məhkəmədənkənar bir mexanizmi təmin edir. Bu mexanizm Avropada İşgəncə, insani və ya alçaldıcı rəftara qarşı mübarizə və cəzanın qarşısının alınması komitəsinin üzvlərinin seçilmiş ölkələrə səfərlərinə əsaslanır. Komitə Avropa Şurasına üzv dövlətlərin müvafiq orqanlarına verdiyi ətraflı tövsiyələrində, davamlı olaraq azadlıqdan məhrum edilmiş və ya azadlığı məhdudlaşdırılmış şəxslərin həbs şərtlərinin qiymətləndirilə biləcəyi bir sıra standartlar hazırlayıb. Komitə üzvləri şəxslərin azadlıqdan məhrum edildiyi istənilən yerə baş çəkə bilər, həbsxanalarda saxlama şəraiti və rejimi, tutulmuş və ya məhkum mühacirlərin işgəncə və ya pis rəftarla üzləşdikləri ölkələrə geri dönməsinin qarşısını alma mexanizmləri həyata keçirir.

Komitənin fəaliyyəti yalnız həbsxana ziyarətləri ilə məhdudlaşmır. Bu yerlər polis bölmələri, psixiatriya xəstəxanaları, hərbi hissələrdə saxlanma yerləri, əcnəbilərin saxlanma yerləri və uşaq qəbul mərkəzləridir.

Azərbaycan Respublikası 25 dekabr 2001-ci il Qanunu ilə “İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması haqqında” Avropa Konvensiyasının və onun 1 və 2 saylı Protokollarını təsdiq edib.

Çıxışda Azərbaycan Respublikasının bu Konvensiyaya qoşulduqdan sonra milli qanunvericilikdə edilən müvafiq dəyişikliklər barədə ətraflı məlumat verilib.

Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının əməkdaşı Aysel Nəcəfli İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının preventiv qrupu tərəfindən şəxslərin iradəsindən kənar saxlanıldığı yerlərə baş çəkmələrinin hansı hallarda və necə həyata keçirilməsi haqqında danışıb.

Tədbirin sonunda iştirakçıları maraqlandıran suallar ətraflı cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Vətəndaşların daşınmaz əmlak və torpaq məsələləri üzrə müraciətləri diqqət mərkəzində saxlanılır

Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən dekabr ayı ərzində mülkiyyət hüquqlarının operativ qeydiyyatı təmin edilib, vətəndaşların daşınmaz əmlak və torpaq məsələləri üzrə müraciətləri diqqət mərkəzində saxlanılıb.

“Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na müvafiq olaraq muxtar respublikanın iqlim şəraitinə uyğun və yüksək məhsuldarlığa malik yerli meyvə-tərəvəz sortlarının bərpası və tətbiq olunması, əkin atlaslarına uyğun meyvə-tərəvəz əkinlərinin aparılması məqsədilə Kəngərli rayonunun Yurdçu və Babək rayonunun Aşağı Buzqov kəndlərində bələdiyyə sədrlərinin, torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçilərinin iştirakı ilə maarifləndirici görüşlər keçirilib, torpaqların qida maddələri ilə təmin olunmasına dair yenilənən kartoqramlar Kəngərli rayonunun Yurdçu, Çalxanqala, Qabıllı, Yeni Kərki, Babək rayonunun Aşağı Buzqov və Yuxarı Buzqov bələdiyyələrinə təqdim olunub.

Xidmət tərəfindən dekabr ayında 814 daşınmaz əmlak obyekti üzərində hüquqlar daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınıb, 671 texniki sənəd hazırlanıb, 32 daşınmaz əmlak obyektinə ünvan verilib, 66 torpaq sahəsinin planı və ölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınıb, məhdudiyyət və yüklülüyə dair 567 arayış verilib.

Ötən ay ərzində xidmətin fəaliyyət istiqamətləri üzrə təqdim etdiyi elektron xidmətlərə hüquqi və fiziki şəxslər tərəfindən daxil olan 119 müraciət qəbul edilərək icra edilib. Müvafiq dövrdə



kənd təsərrüfatı təyinatlı torpaq sahələri və onların mülkiyyətçiləri haqqında əvvəllər yaranan hüquqlara dair 1124 məlumat daşınmaz əmlakın elektron qeydiyyat sisteminə daxil edilib. 9 ailə təsərrüfatına məxsus həyətyanı təsərrüfat binaları sənədləşdirilib, təsərrüfat fəaliyyəti ilə əlaqədar 3 ailə təsərrüfatına icarəsinə verilən torpaq sahəsi üzərində hüquqlar dövlət qeydiyyatına alınıb.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

## Muxtar respublikada su təminatı yaxşılaşdırılır

2022-2023-cü illərin payız-qış mövsümünə hazırlıqla əlaqədar Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə verilmiş tapşırıqların icrası üzrə işlər davam etdirilmişdir.

2022-ci ilin dekabr ayında torpaq sahələrinin suvarılması işlərinin davam etdirilməsi məqsədilə cəmiyyətin tabe təşkilatları tərəfindən kanal və arxlarda lildən təmizlənmə işləri aparılmış, suvarılan sahələrdə qrunt sularının səviyyəsini aşağı salmaq üçün müvafiq işlər görülmüşdür. Hidrotexniki qurğularda təmir işləri yerinə yetirilmiş, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasına və su ehtiyatlarından qənaətlə istifadəyə imkan verən müasir suvarma sistemlərinin quraşdırılması davam etdirilmiş, suvarma suyundan səmərəli istifadə olunmasına nəzarət həyata keçirilmişdir.

Muxtar respublika üzrə su istifadəçilərinə dekabr ayı ərzində 9.6 milyon kubmetr su verilmiş, bunun müqabilində 4 min 864 hektar torpaq sahəsi suvarılmışdır.

2022-ci ilin dekabr ayı ərzində 0.25 kilometr seləqarşı istiqamətləndirici bənd tikilmiş, 0.13 kilometr sahilbərkitmə işləri aparılmış, 5.85 kilometr beton və torpaq kanal, 15.43 kilometr ara arxlar, 1,3 kilometr kollektor lildən təmizlənmiş, 8.43 kilometr içməli su xətti çəkilmiş, 0,21 kilometr kanalizasiya xətti, 4.53 kilometr suvarma boru xətti, 0.01 kilometr yeni kaptaj, 0.28 kilometr qapalı drenaj xətti tikilmiş, 2,54 kilometr mövcud içməli su xətlərində, 0,11 kilometr kanalizasiya xətlərində, 0.75 kilometr suvarma boru xətlərində, 3.14 kilometr təzyiqli boru xətlərində, 0.18 kilometr kaptajlarda təmir-bərpa işləri aparılmışdır.

Torpaq sahələrinin su ilə təminatının yaxşılaşdırılması və su itkisinin qarşısının alınması məqsədilə mövcud kanal və arxların ehtiyac olan hissələrində təmir-bərpa işlərinin aparılması davam etdirilmişdir. Babək rayonunda Sirab Su Anbarına sugətirən kanalın 400 metr hissəsində təmir işləri aparılmışdır.

Yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması hesabına suvarılan torpaq sahələrinin genişləndirilməsi məqsədilə Babək rayonunun Nehrəm qəsəbəsi ərazisində 250 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi başa çatdırılmışdır.

Görülən işlər nəticəsində Şərur rayonunda 14 hektar, Sədərək rayonunda 0.5 hektar torpaq sahəsində qrunt sularının səviyyəsi aşağı salınaraq şoranlaşmanın qarşısı alınmışdır.

Şərur rayonunun Həmzəli və Axura kəndlərinə içməli su xəttinin çəkilişi davam etdirilmiş, 1.99 kilometr uzunluğunda yeni xətt çəkilərək işlər başa çatdırılmışdır. Sədərək rayonundakı “N” hərbi hissəyə içməli su xəttinin çəkilişi davam etdirilmiş və 5.28 kilometr yeni boru xətti quraşdırılmışdır.

Suvarma mövsümünü uğurla başa çatdırmaq məqsədilə təmirə ehtiyacı olan suvarma boru xətlərində işlər davam etdirilmiş, yeni suvarma boru xətləri quraşdırılmışdır.

Kəngərli rayonunun Böyükdüz



və Xok kəndlərinin 3200 hektar əkin sahələrini suvarma suyu ilə təmin etmək məqsədilə Araz Su Anbarından qidalanan yeni nasos stansiyasının və təzyiqli boru xəttinin tikintisi davam etdirilmiş, 130 metr sahilbərkitmə işləri aparılmışdır.

2022-ci ilin dekabr ayı ərzində 5 kəhrizdə təmir-bərpa işləri davam etdirilmişdir.

Suvarma və içməli su mənbəyi kimi istifadə olunan subartezian quyularının 2 ədədinə yeni nasos quraşdırılmaqla 44-ü təmir olunmuşdur. Bundan əlavə, Naxçıvan şəhərində yerləşən “N” hərbi hissənin ərazisində su təminatını yaxşılaşdırmaq məqsədilə 1 ədəd subartezian quyusunun tikintisi başa çatdırılmışdır.

“Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidənqurulması” layihəsi çərçivəsində Sədərək rayonunda içməli su və kanalizasiya şəbəkəsinin tikintisi davam etdirilmişdir. Ərazidə kanalizasiya və içməli su xətlərinin quyularında təmir-bərpa işləri aparılmış, yeni kanalizasiya quyuları tikilmiş, su anbarlarından suyun boşaldılması üçün 432 metr təxliyə xətləri quraşdırılmışdır.

Kəngərli rayonunda içməli su və kanalizasiya şəbəkəsinin tikintisi davam etdirilmişdir.

Bundan əlavə, Culfa rayonunun Yaycı kəndində əhalinin içməli su təminatının yaxşılaşdırılması məqsədilə su təchizatı şəbəkəsinin tikintisi işləri başa çatdırılmışdır. Sədərək rayonunun Dəmirçi kəndində tikinti işləri davam etdirilmiş, 586 evə su sayğacı quraşdırılmışdır.

***Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat xidməti***

2023-cü il “Heydər Əliyev İli”dir

# “Heydər Əliyev İli” müstəqil Azərbaycanın tarixinə mühüm hadisələr, yeni qələbə və nailiyyətlərlə dolu bir il kimi yazılacaq

*Azərbaycanı tarixin ən çətin sınaqlarından çıxaran, onun mövcudluğunu əbədi edən, adı dünyanın axarını dəyişən böyük tarixi şəxsiyyətlərlə bir sırada çəkilən, qeyri-adi siyasi bacarığı və böyüklüyü hər kəs tərəfindən etiraf olunan dahi lider, ideal rəhbər, görkəmli ictimai-siyasi xadim Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur. Dövlət başçısının Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında 2022-ci il 29 sentyabr tarixli Sərəncamı xalqımızın Ulu Öndərinin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması, eyni zamanda milli qürur və iftixar mənbəyimiz olan Dahi Liderin zəngin və çoxşaxəli siyasi irsini yenidən öyrənmək, tədqiq etmək istəyənlər üçün böyük əhəmiyyətə malikdir. Bu mənada, Naxçıvan ictimaiyyətinin bu əlamətdar illə bağlı düşüncələrini eşitmək istədik.*

***İsmayıl Hacıyev – AMEA Naxçıvan Bölməsinin sədri, akademik***: – Müasir Azərbaycan dövlətinin banisi və qurucusu, Ümummilli Lider Heydər Əliyevin xalqımızın taleyində, dövlətimiz və tariximiz qarşısında xidmətləri misilsizdir. Ulu Öndər Azərbaycana rəhbərliyinin birinci dövründə özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük uğurlara nail olmuş, Azərbaycanımızı tənəzzül girdabından xilas edərək inkişaf etmiş respublika səviyyəsinə çatdırmışdır. Görkəmli dövlət xadimi Heydər Əliyevin ikinci dəfə Azərbaycan Respublikasına rəhbərlik etməsi ilə müstəqil dövlətimiz parçalanmaqdan, real vətəndaş müharibəsi təhlükəsindən qurtarmışdır. Ulu Öndər ölkəmizi gözləyən təhlükələrdən xilas etdiyi kimi, onu həm də beynəlxalq aləmin nüfuzlu dövlətinə yüksəltmiş, siyasi lider kimi Ümummilli Lider səviyyəsinə qalxmışdır. Bu dünyada az-az təsadüf edilən hadisədir.



Müstəqil Azərbaycan dövlətinin memarı Heydər Əliyevin anadan olmasının 100 illiyinin milli tariximizdə misilsiz mövqeyə layiq qeyd edilməsi üçün Prezident cənab İlham Əliyevin xüsusi Sərəncamla 2023-cü ili “Heydər Əliyev İli” elan etməsi xalqımızın öz Ümummilli Liderinə məhəbbətini yüksək səviyyədə təcəssüm etdirir. Böyük öndərimiz Azərbaycançılıq ideyasının müəllifi kimi Azərbaycan tarixində həmişəlik yaşayır. Dahi şəxsiyyət Azərbaycançılıq məfkurəsini milli dövlət ideologiyası səviyyəsinə qaldırmış lider kimi Azərbaycan tarixində əbədiyaşarlıq qazanıb, dünya dövlətçilik təcrübəsində və Azərbaycan dövlətçiliyi tarixində ən universal dövlət xadimidir. Görkəmli dövlət xadiminin bioqrafiyasından kənarda müasir Azərbaycanın dövlətçilik tarixi mövcud deyil. Beynəlxalq aləmdə Heydər Əliyev deyəndə Azərbaycan, Azərbaycan deyəndə Heydər Əliyev yada düşür. Bu, çoxminillik dövlətçilik tariximizdə xüsusi bir hadisədir.

Ümummilli Liderin müstəqil dövlət quruculuğu siyasətini Azərbaycan Prezidenti cənab İlham Əliyev uğurla davam və inkişaf etdirir. Ən böyük uğurlarımızdan biri Ulu Öndərin yaratdığı möhtəşəm əsaslar üzərində onun Qarabağın xilas edilməsi arzusunun gerçəkləşməsi, Vətən müharibəsində qazanılmış tarixi Zəfərdir.

***Ülviyyə Həmzəyeva – Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan Respublikasının Əməkdar rəssamı***: – Naxçıvan Muxtar Respublikasında mədəniyyət, incəsənət, o cümlədən təsviri sənətin böyük inkişaf yolu keçməsi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. 1970-ci ildə yaradılan Azərbaycan Rəssamlar İttifaqının Naxçıvan Təşkilatı 1971-ci ildə məhz dahi şəxsiyyətin diqqəti və qayğısı işığında Birliyə çevrilib. Ümummilli Lider Heydər Əliyev Naxçıvanda o dövr yetəri qədər yaşayıb-yaradan, professional rəssamların müraciəti ilə, təşkilatın yaradılması üçün lazımi dövlət strukturlarına göstəriş verib. Sonralar Naxçıvan rəssamlarının sərgilərində, 1992-ci ildə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin ilk binasında sərgiyə baxmağa gəlib. Naxçıvana gəlişində Ulu Öndər sənət adamları ilə görüşüb, söhbət edib, məsləhətlər verirdi.



Ümummilli Liderimizin rəssamlıq sahəsində əsasını qoyduğu ənənələr bu gün Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin, o cümlədən muxtar respublikada yaşayıb-yaradan rəssamların yaradıcılıq imkanlarının artırılması, onlar üçün münasib şəraitin yaradılması həmişə dövlətimizin nəzərində olub. 2013-cü ildə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi üçün yeni bina istifadəyə verilib, rəssamların çalışdığı köhnə emalatxanalar yeniləri ilə əvəzlənib, Birliyin 40, 50 illik yubileyləri dövlət səviyyəsində qeyd edilib, gənc rəssamların yetişməsi, rəssamlıq sənətinin tədrisi üçün hərtərəfli şərait yaradılıb. Rəssamların fərdi sərgilərinin açılması, onların albom-kataloqlarının, ensiklopediyaların hazırlanıb nəşr etdirilməsi, tanınan sənətkarlarımızın fəxri adlar və dövlət mükafatları ilə təltif olunması bu diqqətin bariz nümunəsidir. Bildirim ki, 2012-ci ildən Rəssamlar Birliyi tərəfindən keçirilən “Naxçıvan – bəşəriyyətin beşiyi” Beynəlxalq Rəsm Festivalı bu il Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunub. Naxçıvan rəssamları Ümummilli Liderimizin əziz xatirəsini həmişə yaşadır və bundan sonra da yaratdıqları rəsm əsərlərində yaşadacaqlar.

***Asim Yadigar – Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, şair***: – Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycan xalqının dünyaya bəxş etdiyi nadir, tarixi şəxsiyyətlərdən biridir. Azərbaycanın bütün sahələrdə qazandığı böyük uğurlarda bu böyük insanın, dahi şəxsiyyətin əməyi danılmazdır. Azərbaycanı dünya ölkələri içərisində tanıdan Ulu Öndər xalqımızın yaddaşında xilaskar kimi yaşayır və əbədi yaşayacaqdır. Ötən əsrin 90-cı illərində Moskvadan Naxçıvana qayıdan Ümummilli Lider Heydər Əliyev əsl xilaskar kimi qədim diyarımıza yeni həyat bəxş etdi, ona nicat yolu göstərdi, qədim diyarımızı erməni işğalından qoruya bildi:

*Tufanlar, qasırğalar tüğyan edən zamanda*
*Gəldi Ulu Öndərim Simurqun qanadında,*
*Sönmüş, donmuş çöhrələr gül açdı Naxçıvanda.*
*Gözümüzün işığı, nuru, ziyası gəldi,*
*Anam Azərbaycanın Heydər dühası gəldi!*



Heydər Əliyevin Naxçıvana gəlişi həm də Azərbaycanın müstəqillik uğrunda savaşına yeni bir təkan verdi. Müstəqilliyə gedən yolumuzun ilk bünövrə daşları da məhz elə bu qədim diyarda qəbul olunan siyasi qərarlarla atıldı.

Ulu Öndər ziyalıların və ziyalılığın himayədarı kimi yazıçıların, şairlərin, bir sözlə, ədəbiyyatşünasların dayağı olmuşdur. Ölkəyə rəhbərliyinin hər iki mərhələsində şair və yazıçılarla görüşə, onların yubileylərinə xüsusi qayğıkeşliklə yanaşmışdır. Bu gün Prezident cənab İlham Əliyev bu yolu davam etdirir. Ulu Öndərimizin 100 illiyi ilə əlaqədar ölkəmizdə və dünyada ən möhtəşəm tədbirlər keçiriləcək, ölkənin yazıçı və şairləri də bu ilə öz töhfələrini verəcəklər.

***Elbrus İsayev – Naxçıvan Dövlət Universitetinin rektoru, dosent***: – Bu ilin ölkəmizdə “Heydər Əliyev İli” elan edilməsi xəbəri cəmiyyətin bütün təbəqələrində hədsiz sevinclə qarşılandığı kimi Naxçıvan ziyalılarının təmsil olunduğu Naxçıvan Dövlət Universitetinin də kollektivi tərəfindən yüksək rəğbət və ehtiramla qarşılanır.



Məlum olduğu kimi, Azərbaycan Respublikasında milli ziyalılığın, orta və ali təhsilin sürətli inkişafı görkəmli dövlət xadimi Heydər Əliyevin adı və fəaliyyəti ilə üzvi surətdə bağlıdır. Məhz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə ölkənin ümumi inkişafı naminə elm və təhsil məsələləri dövlətin və cəmiyyət həyatının ön mövqeyinə çəkilmişdir. Müdrik və uzaqgörən siyasətçi Heydər Əliyev Azərbaycanı bütün yönləri ilə inkişaf etdirmək işində dərin bilikli, yüksəkixtisaslı, vətənpərvər mütəxəssislərin hazırlanmasını zəruri şərtlərdən biri saymışdır. Bu məqsədlə, ilk növbədə, respublikamızda mövcud olan ali məktəblərin maddi-texniki və tədris bazası daha da möhkəmləndirilmiş, ölkədə bir sıra yeni ali təhsil müəssisələri yaradılmışdır.

Azərbaycanın ali məktəblər ailəsində özünəməxsus yeri və mövqeyi olan Naxçıvan Dövlət Universitetinin formalaşma və inkişafında Ümummilli Lider Heydər Əliyevin böyük və əvəzsiz xidmətləri vardır. Bu ali təhsil ocağı özünün müxtəlif mərhələlərdəki inkişaf və tərəqqisi üçün məhz Dahi Rəhbər Heydər Əliyevə borclu və minnətdardır. Hazırkı Naxçıvan Dövlət Universiteti 1967-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialı kimi fəaliyyətə başlayıb, daha sonra Ulu Öndər Heydər Əliyevin 1972-ci il 12 iyun tarixli Fərmanı ilə həmin filialın bazasında Naxçıvan Dövlət Pedaqoji İnstitutu yaradılıb. Müstəqil ali məktəbin yaradılması regionun elmi-mədəni inkişafına, burada ziyalı potensialının artmasına, maarifçilik hərəkatına müsbət təsir göstərib. Pedaqoji İnstitut sonralar – 1990-cı il 29 dekabrda Naxçıvan Dövlət Universitetinin təşkili üçün münbit elmi-pedaqoji baza funksiyasını yerinə yetirib. Ali təhsil müəssisəsinin qurulması və inkişafında xüsusi xidmətləri olan Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev müxtəlif vaxtlarda (1974, 1992 (iki dəfə) və 1999-cu illərdə 4 dəfə) Naxçıvan Dövlət Universitetində olmuşdur. Naxçıvan Dövlət Universitetində çalışan alimlərin elmi-pedaqoji fəaliyyəti görkəmli dövlət xadimi Heydər Əliyev tərəfindən hər dəfə yüksək qiymətləndirilib, universitetin əməkdaşlarına “Əməkdar elm xadimi”, “Xalq rəssamı”, “Əməkdar müəllim”, “Əməkdar incəsənət xadimi” fəxri adlarının verilməsi burada fəaliyyət göstərən professor-müəllim heyətinin daha məsuliyyətlə və inamla işləmələrinə təkan verib. Bu gün qürur hissi ilə qeyd edirik ki, görkəmli dövlət xadimi Heydər Əliyev Naxçıvan Dövlət Universitetinin fəxri doktorudur. Universitetin Elmi Şurası bu tarixi qərarı ilə Ulu Öndərin bütövlükdə, milli ali təhsilin, o cümlədən Naxçıvan Dövlət Universitetinin inkişafındakı misilsiz xidmətləri qarşısında özünün mənəvi borcunu yerinə yetirib.

Bu gün Naxçıvan Dövlət Universiteti Heydər Əliyev siyasi kursunun, dövlətçilik təliminin işığında təhsil islahatlarını məqsədyönlü şəkildə həyata keçirir, yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasında ciddi uğurlar əldə edir. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ali məktəbi, eləcə də Naxçıvan Dövlət Universiteti yeni inkişaf mərhələsində maddi-texniki bazanın möhkəmləndirilməsi, ali təhsilin keyfiyyətinin yüksəldilməsi, elmi-tədqiqat işlərinin səmərəliliyinin daha da artırılması, nəhayət, dünya universitetlərinə inteqrasiya baxımından özünün yeni həyatını yaşayır.

Göründüyü kimi, Naxçıvan Dövlət Universitetinin keçdiyi yol müstəqil Azərbaycan dövlətində ali təhsilin inkişaf etdirilməsi sahəsində Ulu Öndər Heydər Əliyev siyasətinin uğurla reallaşdırılmasının mühüm nəticələrindən biridir. Naxçıvan Dövlət Universitetinin çoxminli kollektivi bundan sonra da Heydər Əliyev ideyalarının işığında inkişaf və müasirləşməni fəaliyyətinin əsas meyarı hesab edir.

***Cəbi Quliyev – Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru***: – Müstəqilliyimizin ilk illərində Azərbaycanın bir dövlət kimi məhv olmaq təhlükəsi ilə üzə-üzə qalması, iqtisadi-sosial və siyasi böhran xalqımız üçün çətin tarixi bir dövr kimi yaddaşlara yazılıb. Belə bir ağır dönəmdə məhz xalqın tələbi ilə Ulu Öndərin yenidən ölkə hakimiyyətinə qayıtması qurtuluşun tək çarəsi idi. Ümummilli Lider Heydər Əliyev istər XX əsrin 70-ci illərindən başlayaraq SSRİ məkanında bütün göstəricilər üzrə sonunculardan olan Azərbaycanı ən yüksək pillələrə qaldırması ilə gələcək müstəqil Azərbaycanın ilkin təməllərini artmış, müstəqilliyin ilk günlərindən böhran vəziyyətinə düşmüş ölkəni qurtarmaqla yanaşı, dünyada söz sahibi bir dövlətə çevirmişdir. Bu böyük siyasi xadim XXI əsrə işıq tutan ideologiyanın banisi, Azərbaycan xalqının daim böyük ehtiramla yad etdiyi dahi şəxsiyyət kimi əbədi yaşayacaq. “Əsrin müqaviləsi”nin imzalanması, yeni nəqliyyat dəhlizlərinin inşasına başlanması, uğurlu ordu quruculuğu, təhsil, səhiyyə, mədəniyyət sahəsində yenidən quruculuq dövrünün başlanması, Azərbaycançılıq ideologiyasının ətrafında dünya azərbaycanlılarının birləşdirilməsi gələcək Azərbaycanın ən mühüm və taleyüklü problemlərinin həll edilməsi, uğurlarının başlanması demək idi. Ölkəmizdə uğurlu dövlət gənclər siyasətinin əsası Ümummilli Lider tərəfindən qoyulub. Ulu Öndər hər zaman gənclərə xüsusi qayğı ilə yanaşır, sağlam, müasir düşüncəli yeni nəslin yetişdirilməsini mühüm vəzifə hesab edirdi. Bu gün Dahi Liderin ideyaları əsasında yetişən gənclik öz ağlı, savadı ilə ölkəmizin daha da inkişafına töhfəsini verir.



Ulu Öndər 2003-cü ilin oktyabr ayının 1-də prezident seçkiləri ərəfəsində xalqa müraciəti zamanı Azərbaycanın gələcək yol xəritəsini elan edərək, siyasi varisi kimi ölkə başçısı cənab İlham Əliyevi seçməklə Azərbaycan tarixində yeni dövrün başlanğıcını qoymuş oldu. Ulu öndərin layiqli davamçısı, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev ötən dövrdə onun üzərinə düşən bütün məsələləri həll etməklə öz adını Azərbaycan tarixinə yazdırdı.

*Ölkəmiz Prezident cənab İlham Əliyevin liderliyi ilə sosial-iqtisadi göstəricilərinə görə dünyanın ən qabaqcıl dövlətlərindən birinə çevrilib. Əminliklə deyə bilərik ki, Heydər Əliyev yoluna sədaqət, bu yoldan dönməzlik Azərbaycanı daha böyük uğurlara, nailiyyətlərə aparacaqdır. 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi, sadəcə, Ulu Öndərin 100 illik yubileyi ilə əlamətdar olmaqla kifayətlənməyəcək, bu il həm də Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycanın tarixinə mühüm hadisələrlə, yeni qələbə və nailiyyətlərlə dolu bir il kimi yazılacaq.*

**Güntac ŞAHMƏMMƏDLİ**

## Miqrasiya proseslərinə nəzarət gücləndirilir

Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilən tədbirlər dekabr ayında da davam etdirilib. Xidmət tərəfindən muxtar respublika ərazisində qanunsuz yaşayan və qeydiyyatsız olan, qanunsuz əmək fəaliyyəti ilə məşğul olan, habelə müvəqqəti yaşamaq üçün icazə vəsiqəsini itirən 98 əcnəbi aşkarlanaraq Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq barələrində müvafiq tədbirlər görülüb.

Ötən ay Dövlət Miqrasiya Xidmətinə, ümumilikdə, 415 müraciət daxil olmuşdur. Həmin müraciətlərdən 186-sı əcnəbilərə Azərbaycan Respublikasında müvəqqəti və daimi yaşamaq üçün icazənin verilməsi, əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazəsinin verilməsi, eləcə də vətəndaşlıq məsələləri ilə bağlı olmuşdur. Müraciətlərin hər biri ayrıayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə əsasən araşdırılmış, müvafiq qərarlar qəbul edilmişdir.

Ötən dövrdə olduğu yer üzrə qeydiyyatla bağlı 229 müraciətin icrası təmin olunmuş, həmin müraciətlərdən 62-si elektron poçt üzərindən qəbul edilmişdir.

Dövlət Miqrasiya Xidməti tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq maarifləndirmə tədbirləri aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

## Naxçıvanda Bəhruz Kəngərlinin anadan olmasının 131-ci ildönümü qeyd edilib

*Görkəmli fırça ustası Bəhruz Kəngərlinin anadan olmasının 131-ci ildönümü ilə bağlı tədbir keçirilib.*

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi və Rəssamlar Birliyinin birgə təşkilatçılığı ilə keçirilən tədbir rəssamın Naxçıvan şəhərində yerləşən məzarını ziyarət etməklə başlayıb. Bəhruz Kəngərli Muzeyində davam etdirilən mərasimdə Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova Bəhruz Kəngərlinin Azərbaycan rəssamlığına, mədəniyyətinə göstərdiyi əvəzsiz xidmətlərdən danışıb. Vurğulanıb ki, Azərbaycan təsviri sənətində realist dəzgah boyakarlığının təşəkkülü, portret və mənzərə janrlarının formalaşması Bəhruz Kəngərlinin adı ilə bağlıdır. Qeyd olunub ki, Ümummilli Liderimiz Heydər Əliyev Bəhruz Kəngərli yaradıcılığına daim böyük qayğı göstərib.



Onun təşəbbüsü ilə Naxçıvan şəhərində Bəhruz Kəngərli Muzeyi yaradılıb, 2002-ci ildə muzeyin açılış mərasimində xalqımızın böyük oğlu Heydər Əliyev Bəhruz Kəngərli yaradıcılığına yüksək qiymət verib. Rəssamın Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərini nəzərə alan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2012-ci il 13 aprel tarixdə "Bəhruz Kəngərlinin 120 illik yubileyi haqqında" Sərəncam imzalayıb, Sərəncama əsasən görkəmli rəssamın yubileyi ölkə miqyasında geniş qeyd olunub.

Diqqətə çatdırılıb ki, bu illər ərzində görkəmli sənətkarın Naxçıvan şəhərində məzarüstü abidəsi qoyulub, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 1972-ci ildən fəaliyyət göstərən sərgi salonuna və Naxçıvan şəhərindəki Rəssamlar Parkına rəssamın adı verilib, parkda rəssamın heykəli ucaldılıb, həyatı və yaradıcılığı haqqında film hazırlanıb. 2002-ci ildən fəaliyyətə başlayan Bəhruz Kəngərli Muzeyi 2013-cü ildə yenidən qurulub.

Naxçıvanda rəssamlıq sənətinin inkişafında Bəhruz Kəngərli irsinin rolundan danışan Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı, Milli Məclisin Mədəniyyət Komitəsinin üzvü Ülviyyə Həmzəyeva diqqətə çatdırıb ki, yaradıcılığında milli ruh, Azərbaycançılıq ideyaları aşılayan Bəhruz Kəngərlinin doğum günü məhz Rəssamlar günü kimi qeyd olunur.

Tədbirdə Bəhruz Kəngərli Muzeyinin direktoru Səbinə Əlincəli, sənətşünas Nizami Alıyev çıxış ediblər.

Sonda Bəhruz Kəngərli adına Rəssamlar Parkında görkəmli rəssamın abidəsi ziyarət edilib.

**Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti**

## Təndir çörəyinin ətri də, bərəkəti də geri qayıdır

*Adətlərimiz bizləri yaşadan, soy-kökümüzü göstərən milli kimlik vəsiqəmizdir, – desək, yanılmarıq. Milli məişət elementlərimizdən biri olan mətbəx mədəniyyətimizdən, qədim yaşayış tərzimizdən soraq verən təndirlər isə hər zaman bir elin-obanın xeyir-bərəkət, ruzi rəmzi sayılıb, həm də həmin eldə-obada həyat nişanəsi, yaşayış vasitəsi hesab edilib. Uzaqdan, bacadan çıxan təndir tüstüsünün görünməsi o deməkdir ki, o kəndin eli-ulusu yerindədir, burada yaşayış var, həyat davam edir.*



Təndirlərdə bişirilən çörəyin dadı, ləzzəti fərqli olduğu kimi, onun ərsəyə gəlməsi də səbir və işgüzarlıq tələb edir. Xüsusi yardım istəyən bu iş həm də bir el birliyi rəmzi sayılıb. Belə ki, çörək bişirilən həyətdə, adətən, yaxın qonşular təndir başında bir araya gələr, hərə bir işə əl atdığından ev sahibi təndirin nə vaxt qalandığını, çörəyin nə vaxt bişirildiyini, bir sözlə, işin ağırlığını hiss etməzdi. Təndir başı həm də insanların canlı və səmimi ünsiyyət məskəni idi. Burada çalışanlar bir ailə üzvü kimi deyə-gülə, səmimi, mehriban söhbət edər, bir süfrənin başında iştaha ilə nahar edər, sonda da ev sahibinin isti təndir çörəyindən verdiyi sovqatı götürər və ya özləri ilə gətirdikləri xəmirdən tələbatları qədər bişirdikləri çörəklərini aparardılar.

Təndirə od salınanda, adətən, xəmir kündələnir ki, təndir qızışana qədər xəmir də yaxşıca acısın. Təndir tam ağarıb qurtardıqda həddindən artıq isti və ya qızmar olduğundan çörək yapmaq üçün bir az gözləmək lazım gəlir ki, yapılan çörək küt getməsin.

Təndir çörəyi bişirilən məhəllənin yanından ötüb keçən hər kəs onun xoş ətrindən məst olur. Adətə görə, təndirdən çıxan ilk çörəyi uşaqlara, evin qonağına verərlər. Belə deyirlər ki, bu həmin evə xeyir-bərəkət, ruzi gətirər. Ümumiyyətlə, isti təndir çörəyinin dadına görə tayı-bərabəri yoxdur. Onu da qeyd edək ki, milli mətbəximizdə təndirdən təkcə çörəkbişirmək üçün istifadə olunmur, təndirdə həm də müxtəlif xörəklər bişirilir. Təndir çörəyi kimi, təndir kababı, təndir ləvəngisi, təndir külləməsi, təndir qovurması da öz dadı və ləzzəti ilə hər zaman adla deyilib. Ümumiyyətlə, Azərbaycan mətbəxində təndir, kürə, buxarı, külfə, sac, manqal və digər ocaq növlərinin məxsusi yeri vardır.



Zaman dəyişdikcə ənənələrimizin bəziləri tarixin yaddaşına köçməkdədir. Axı bir zamanlar nənələrimiz təndirdən təzə çıxan ilk çörəyi bıçaqla yox, eləcə əllə kasıb yoldan ötənləri qonaq ediblər, qonaq-qaraya, qonum-qonşuya pay tutublar, qollarını çırmalayıb qonum-qonşuya toy çörəyi yapıblar. Doğmasını, ailə üzvünü qəfil itirən ev sahibi yas mərasimində veriləcək ehsan üçün yaxın qohumların, qonşuların yığışıb nə vaxt çörək yapdıqlarını hiss etməyib. Təəssüf ki, son zamanlar Naxçıvanda, demək olar ki, təndirdə çörək bişirilmədiyi üçün bu adətlər də unutdurulmuşdu.

"Bizdən alın, razı qalın!.." Vaxtilə muxtar respublikada ləziz təndir çörəyi bişirməklə məşğul olanlar bu ifadəni ürəklə işlətmək üçün uzun zaman gözləməli olublar. Xüsusilə muxtar respublikanın rayon və kəndlərində insanların qarşısına qoyulan əsassız məhdudiyyətlər onların çoxunu bu sahədən uzaqlaşdırıb. Belə hallarla üzləşən təkcə sahibkarlar, iş adamları yox, eyni zamanda sadə vətəndaşlar da olub. Naxçıvanda çoxları adət-ənənəmizə, milli mədəniyyətimizə xas olan və özünəməxsus yer tutan təndir çörəyini bişirmək arzusunda olsa da, bu onlara qismət olmayıb. Nə qədər qəribə səslənsə də, bunun səbəbi təndir bacasından çıxan tüstünün kəndin "atmosferini korlamasıdır".



Bu gün isə artıq kəndlərimizdə bir çox ailələr muxtar respublikada insanların rahatlığı üçün yaranan fürsəti dəyərləndirib artıq rahat şəkildə ənənələrimizi yaşatmağa başlayıb.

Bir vaxtlar təndir çörəyi adla tanınan Sədərək rayonundayıq. Sədərək kənd sakini ***Mehbarə Hüseynova*** deyir ki, ailə təsərrüfatçısı olmasına baxmayaraq, təndirdə çörək bişirməsinə icazə verilmirdi: "Uzun illərdir, ailə təsərrüfatı ilə məşğul oluram və muxtar respublikada keçirilən bir çox festivallarda iştirak etmişəm. Analarımızdan, nənələrimizdən bizə miras qalan, ənənəmizə xas olan təndir adətləri var. Əvvəllər, gördüyünüz bu məhəllədə hamı bir təndirəsərə toplaşar, çörək bişirərdi, həmin gün bizlər üçün bayram olardı. Lakin sonradan kəndlərdə təndirdən istifadəyə qadağa qoyulmaqla bu adət-ənənə zorla unutduruldu. Bəhanə gətirildi ki, təndirin tüstüsü ətraf mühiti korlayır, tələbatı ödəmək üçün isə çörək sexləri fəaliyyət göstərir. Halbuki bu, ənənəyə zidd bir addım idi. Artıq çörək bişirə bilmədiyimiz üçün məcbur olub mağazalardan çörək alırdıq. Təbii ki, həmin çörəklər min bir zəhmət və həvəslə təndirdə bişirdiyimiz çörəklərin ətrini, dadını vermirdi, keyfiyyətcə aşağı olurdu. Son zamanlarda baş verən məlum hadisələrdən sonra artıq rahat şəkildə təndirimizi yandıra, çörəyimizi bişirə bilirik".

***Nazilə Əliyeva*** isə deyir ki, vaxtilə kənd camaatı bir yerə yığışaraq həm çörək bişirir, həm də bir-biri ilə hal-əhval tuturdu. Tətbiq edilən "qaydalar"dan sonra bəzən aylarla qonşularımızı görmürdük. Bu həm də insanlar arasında soyuqluq yaradırdı. Hətta bəzi insanlar təndirlərini doldurub, ləğv ediblər. İndi isə artıq rahat şəkildə təndirdə çörək bişirə bilirik. Kimsə gəlib tüstünün çıxmasına görə bir söz demir.

Kənd sakini ***Röya Abbasova*** isə deyir ki, hər təndirin dilini öz sahibi bilər: "Təndirlər müxtəlif olur. Burada çörək bişirmək bir qədər çətin və ustalıq tələb edən işdir. Bunu hər adam bacarmır. Zaman keçdikcə bu ənənə ləğv olunmuşdu, daha doğrusu, bizim təndir başında toplanmağımız qadağa idi. Səbəb əsassız olsa da, deyirdilər, tüstü ekologiyanı korlayır. Biz də məcbur olub təndirdə çörək bişirməyi tərgitmişdik, mağazadan alırdıq".

Muxtar respublikamızda təndir salmaq bir mədəniyyət kimi formalaşıb və qədimdən gələn bir milli element kimi yaşadılıb. Hətta təndir salınanda onun ilk közündə bişən çörəyə "tətərəz", sonra bişirilənə "lavaş", közündə bişənə isə "küt lavaş" deyərdilər. Vaxtilə təndirdə bişirilən Novruz şirniyyatları – içli çöçə, şirin çörək, dastana, qoğal və digər unlu və şəkərli qənnadı məmulatlar dadı ilə ağzımızın ləzzəti, görünüşü ilə süfrələrimizin bəzəyi olub.

Müasir dövrümüzdə digər sahələr kimi, çörək istehsalı prosesində də yeni texnologiyaların tətbiq edilməsi, təbii ki, xanımlarımızın əl əməyini yüngülləşdirməklə onların rahatlığını təmin edib. Əhaliyə müxtəlif çeşiddə çörək və şirniyyat növləri təqdim edən sexlər, zavodlar fəaliyyət göstərir. Lakin bu da məlumdur ki, təndirdə bişirilən Naxçıvan lavaşının, çörəyinin dadına və keyfiyyətinə söz ola bilməz. Lakin tüstüsü "göz çıxarır" deyə (?!) qədim adət-ənənəmizdən vaz keçməli, evimizə gələn əzizlərimizi öz əlimizlə bişirdiyimiz isti təndir lavaşına, yağlı fətirə qonaq etmək zövqündən məhrum olmuşduq. Sevindirici haldır ki, muxtar respublikada bir çox problemlərin həllinə işıq salan, sakinlərin haqlı giley-güzarlarına son qoymaqda olan son hadisələr itib-batmaqda olan təndir mədəniyyətinin də bərpa olunmasına yol açdı. Artıq öz halal çörəyimizi öz təndirimizdə əl adətincə bişirib ətrinə və dadına doya-doya nuş edə bilirik! Hər kəsə bərəkətli olması diləyi ilə.

**Ceyhun MƏMMƏDOV**

## "Sirab aldım süd çıxdı" *(İkinci hekayə)*

Təkrarçılıq olmasın deyə bu yazıya başqa bir başlıq da seçmək olardı. Amma bu gün gecikmiş həqiqətlə üz-üzə qalmış sadə insanların sualları, yaxud bildi-bilmədi bəzilərinin iddiaları bizi də düz 10 il geriyə, qəzetimizin 25 aprel 2012-ci il nömrəsinə bir də nəzər salmağa vadar etdi. O dönəmə ki sadə oxucunun indi haqlı olaraq yönəltdiyi "nədən?!" sualından öncə o vaxtlar qəzetdə Naxçıvanın həmin dövrdəki iqtisadi və sosial-mədəni həyatındakı inkişafı ilə bərabər problemlər də işıqlandırılır, mətbuat günün nəbzini tutmağa, çəkinmədən sözünü deməyə çalışırdı. Bu da təsadüfi deyildi, çünki konkret olaraq "Şərq qapısı" qəzeti hələ Ümummilli Lider Heydər Əliyevin Naxçıvandakı fəaliyyəti dövründə bütün çətinliklərə baxmayaraq, 100 illik tarixinin qızıl səhifələrini yazmış və bu ənənə həmin illərdə də davam etdirilmiş, jurnalist araşdırması və tənqidi fikir bir kirpi tikanı kimi dəqiq ünvanını sancmışdır. Ancaq daha sonralar birdən nə oldusa, kim nə dedisə, bu "kirpi" qınına girib, ətrafı görməz oldu. Və bu boşluğu dolduran keçəl məddahlar da az qala şəhərimizdəki Bazar gölündə üzən qazlara göstərilən "qayğı"dan dəm vurub, onlara yem atan bikar adamların fədakarlığından bəhs etdilər. Beləcə, zamanla havanın getdikcə daha da qaralması ilə çoxalan siçanları ovlayan "qara pişik"lərə də əsl meydan yarandı. Halbuki…

Orxan Fikrətoğlunun sözü olmasın, halbuki Naxçıvan təkcə 1990-ların deyil, bütün tariximiz boyu xalqımızın düşüncə, azad söz və demokratik fikir mərkəzi olub, məhz bu torpaqdan ilk azadlıq şüarları səslənib. Naxçıvanlılar nə qədər çətin şərtlərdə olsalar da, həmişə doğma Bakı ilə qucaqlaşaraq bütün təhlükələrə birgə sinə gərib, Vətənimizin torpaq bütövlüyü üçün bərabər mübarizə aparıblar. İqtisadiyyat inkişaf etdirilib, insanlar yurd yerlərində məskunlaşmağa, ata ocağında qurub-yaratmağa çalışıblar. Eləcə də ədəbi mühit, azad söz, yaradıcılıq axtarışları da insanları düşünməyə, düşündükcə də hər şeyin ən doğrusunu, ən faydalısını etməyə səsləyib.

Bəli, təxminən, həmin dövrlərdə zamanın diktəsi ilə insanları xoşbəxt edən müsbət hadisələrlə yanaşı, "nəyə görə Naxçıvanda südün hələ də Sirab butulkasında satıldığı" qələmə alınmış, südsatan Pəriş nənənin müştərilərini necə razı salması çox da kəskin olmayan satirik bir dildə tənqid mövzusu olmuşdu. Çünki Naxçıvanda süd emalı müəssisələrinin yaradılmadığını ozamankı şərtlərdə birbaşa söyləmək "xoşagəlməz" olduğundan, dolayısı ilə bunun günahını boş "Sirab" butulkalarında axtarmışdıq. O zamanlar bu və bunun kimi digər replikalarımızın əsl mahiyyətini tutan sadə naxçıvanlılar marketlərdən standartlara uyğun qablaşdırılmış yerli istehsal məhsulu olan süd, qaymaq, kərə yağını tapmayıb, mənşəyi bilinməyən Yeni Zelandiya və İran istehsalı olanları alanda bizimlə bərabər təəssüflənsələr də, tənqidin birbaşa hədəfi olan zırpı məmurlar isə, əksinə, kiçik sahibkarlığa şərait yaradıb əsl regional inkişafa çalışmaq əvəzinə kəndlinin acığına onunla sanki "sosializm yarışı"na girirmiş kimi özləri




yüz hektarlarla torpaq sahəsində taxıl əkir, minlərlə baş mal-qara saxlayıb, bağ-bağat, mülk sahibi olurdular. Puluna minnət!

Halbuki bu gün üstü açılıb. Yüz milyonlarla ölçülən həmin pullar Azərbaycan hökuməti tərəfindən hər yerdə, hər kəsin yaxşı yaşaması, iqtisadiyyatın şaxələndirilməsi, ixracın təşviq edilməsi, ən ucqar kənddə mümkün olduğu qədər çox istehsal və xidmət sahəsinin təşkili, torpaq mülkiyyətçilərinə üstünə şapka qoyulmadan texnika verilməsi, əhalinin ucqarlardan köçünün qarşısının alınması, yerli xammalla işləyən emal müəssisələrinin yaradılması üçün verilmişdi. Bunlar olmadıqca Naxçıvanın onsuz da quraqlıqdan az olan suvarma suyu ehtiyatlarının qolu zorbalara verilməsi, Şahbuzun, Ordubadın yay otlaqlarının arandan gələn nazir-fermerlərin qoyun-quzularına peşkəş edilməsi, bu rayonların dağ kəndlərinin səfalı guşələrində "Kiçik Çin səddi" ilə əhatələnmiş başçı, nazir, keçmiş nazir və daha kimlərəsə aid villaların ucaldılması, nəticədə, şəhərlə kəndin yaxınlaşmasından çox kəndlərin gedərək boşalması, evlərin qıfıllanması, kənd məktəblərində müəllimlərin şagirdlərdən sayca çox, şəhər məktəblərində isə, əksinə, 25-30 nəfər şagirdin bir sinfə sıxışdırılması qaçılmaz oldu. Nəticədə, öz dözümlülüyü, doğma torpağa, qohuma, dosta bağlılığı və dürüstlüyü ilə seçilən naxçıvanlıların bir çoxu ölkəmizin digər yerləri ilə müqayisədə həyat səviyyəsi fərqlərinin daha çox artmasına səbir edə bilməyib Bakıya, qardaş Türkiyəyə köç etdilər. Köç edə bilməyən Pəriş nənə kimi ahıllar isə bu gün də "Sirab" butulkalarındakı yarıturşumuş südü həftəsonu yarmarkasında günortaya qədər dəyər-dəyməzinə şəhər camaatına sata bilmək üçün müştəri çağırırlar. Çünki yubansalar, adambaşı taksiyə 5 manat ödəyib Şərura getməli olacaqlar. Bilirlər ki, günorta saat 2-dən sonra Şərur-Sədərək istiqamətində bir dənə də olsun avtobus tapılmayacaq. Halbuki…

Bəli, halbuki bu bölgələr Naxçıvan Muxtar Respublikasının əhali ehtiyatları baxımından ən böyük rayonlarıdır.

**Əli CABBAROV**

*Gəlin açıq danışaq*

# Daxili bazarda qiymət tənzimlənməsi əhalinin sosial rifahına xidmət edir

*90-cı illərin çətin günlərində nənəmin dilindən tez-tez "paltar yamaq götürər", "qarın yox" sözlərini eşidəndə nə demək istədiyini başa düşməzdim. Böyüdükcə anladım ki, söylədiklərinin mənası insan yamaqlı paltar geyinə bilsə də, ac qala bilməzmiş demək imiş. Həmin illərdə yaşlı qadınlar tez-tez İkinci Dünya müharibəsini yada salar, deyərdilər: "Aclıq ən böyük fəlakətdir". İnsan çətin vəziyyətdə qalanda məcbur olub nə tapsa onu yeyir ki, ölməsin. 1990-cı illərin əvvəllərində nənələrimizin İkinci Dünya müharibəsində yaşadıqlarını biz də yaşadıq. Naxçıvan blokadaya salındı, aclıqla sınağa çəkildi. Onunla bərabər, düşmənlə mübarizə aparmalı olduq və qalib gəldik.*

Ulu Öndərimizin gərgin əməyi sayəsində çətin günlərdən işıqlı sabahlara çıxdıq. Onun yolunun davamçısı Prezident cənab İlham Əliyevin muxtar respublikamıza göstərdiyi qayğı ilə gün-güzəranımız yaxşılaşdı. Təhsil, səhiyyə, mədəniyyət infrastrukturları üçün yeni binalar inşa edildi, kəndlər, şəhərlər abadlaşdı. Nə isə, deyəsən, mətləbdən bir qədər uzaqlaşdım, sözümün canı ammalar, ancaqlar və lakinlərdir. Ancaq bu gözəlliklərin içərisində çox vaxt dünya nemətlərinə tamarzı da qaldıq. Kiminsə kefinə görə qoyulan qadağalar çox vaxt bəzi nemətlərə baxa-baxa qalmağımıza səbəb oldu. Düzdür, yurdumuzun bərəkətli torpaqları var, amma ki iqliminin sərtliyinə görə bir çox meyvə və tərəvəzləri yetişdirmək olmur. Onda da məcbur qalıb həmin nemətləri bazar piştaxtalarına düzmək üçün ölkəmizin digər bölgələrindən gətirirdilər ticarətlə məşğul olanlar. Yenə amma ilə qarşılamalı olurdu onda həm satan, həm də alan. Göyçaydan nar, Lənkərandan limon, portağal gətirən sahibkar həmin məhsulu Naxçıvan Muxtar Respublikasına keçirmək üçün gömrük rüsumu ödəməli olurdu. Bu da onunla nəticələnirdi ki, Qubadan 50 qəpiyə alınan almanın qiyməti Naxçıvan bazarına gəlib çıxana kimi qalxırdı 3 manata. Ən pisi isə o idi ki, qardaş Türkiyədən belə bir kilo tərəvəz və ya meyvə alıb gətirə bilmirdik. Səbəbi isə daxili məhsulun satışına mane olduğumuzla izah edilirdi.

Nə az, nə çox, düz 27 il şişirdilmiş və bəzən də özümüzün böyütdüyümüz rəqəmlərə, bir də bazardakı qiymətlərə baxıb köks ötürmək məcburiyyətində qaldıq. Artıq bir aydır ki, yuxarıda sadaladığım gömrük rüsumu ləğv edildiyi üçün həm satıcıların üzü gülür, həm də alıcıların. Artıq Bakı-Naxçıvan arası kim nə istəsə, alıb gətirə bilir, daha bir yeşik pomidora görə Naxçıvan Beynəlxalq Hava Limanındakı nəzarətçilərə dil çatdırmaq da, keçirdiyimiz məclisdə, süfrədə bol olsun, deyə kilosu 12 manatdan pomidor almaq məcburiyyətimiz qismən də aradan qalxıb. Qismən deyirəm, çünki hələ də paytaxt bazarı ilə Naxçıvan bazarının arasında fərq az da olsa, var.







Bu düşüncələrlə şəhərimizin ən böyük ticarət mərkəzi olan "Cahan" ticarət mərkəzinə çatıram. Yaxın qonşum – yaşı 70-i ötən Naxçıvan şəhər sakini ***Lətifə Hüseynova*** ilə birlikdə ev üçün həftəlik bazarlığa başlayırıq. O, ətrafa baxıb razılıqla deyir:

– Dünyanın hər üzünü gördük, ac da qaldıq, soyuqdan donmamaq üçün ağacları da kəsib yandırdıq. Düşmənə əyilmədik. Allaha şükür, çətin vəziyyətlərdən dahi rəhbərin köməyi ilə çıxdıq. Amma ki, onun yaratdıqlarına, əzizlədiyi sakinlərin rifah halına biganə yanaşanları da gördük. Dünənə kimi bazarda bir kilo yaxşı alma almaq üçün gərək heç olmasa 3 manat verərdin. İndi baxıram, muxtar respublikada yetişən meyvələrlə yanaşı, İsmayıllıdan, Qubadan da alma gətiriblər. Qiymətlər münasibdir. Nar 1 manata da var, 80 qəpiyə də, sitrus meyvələri də almaq olur, daha qiymət əl yandırmır. Lətifə xala söhbət edə-edə lazım olan bazarlığı edir və onu evinə yola salır, satıcı və sahibkarlardan da yaranan vəziyyətlə bağlı fikirlərini öyrənmək üçün üz tuturam topdan və pərakəndə meyvə, tərəvəz, şirniyyat, çərəz satan mağazalara.

"Cahan" ticarət mərkəzinin topdansatış mağazalarında meyvə-tərəvəz satışı ilə məşğul olan sahibkar ***Qəhrəman Bayramov***la həmsöhbət oluruq. O, 25 ildən artıqdır ki, bu işlə məşğuldur. O deyir: – Əsasən, yerli meyvə-tərəvəz satışına üstünlük verir, sitrus meyvələrini Azərbaycanın digər bölgələrindən, ananas, banan kimi meyvələri isə qardaş Türkiyə Respublikasından gətirirdik. Sahibkarlıqla məşğul olan hər bir iş adamı istəyər ki, gətirdiyi məhsul həm keyfiyyətli olsun, həm də uyğun qiymətə satışın həyata keçirə bilsin. Keyfiyyətli məhsul gətirməyinə gətirirdik, lakin Azərbaycanın qərb rayonlarından Naxçıvana gətirdiyimiz məhsullara rüsum ödəməli olurduq. Bir dövlətin ərazisində yaradılan bu qayda gülünc səslənsə də, belə idi. Nəticədə, nə bizim üzümüz gülürdü, nə də sakinlərin. Artıq bir aydır ki, dövlət başçısı tərəfindən muxtar respublikada aparılan islahatlar sayəsində Bakı-Naxçıvan arasında yaradılan süni manea



aradan qalxıb. Bu da qiymətlərə nisbətən təsir edib.

Digər müsahibim ***Raif Əsədov*** 20 ildir ki, ticarətlə məşğuldur. O, mağazasında həm özünün hazırladığı, həm də qonşu ölkələrdən gətirdiyi məhsulları satışa çıxarır. "Ordubad məhsulları daha çox alıcı rəğbəti qazanır", – deyən müsahibim bildirir ki, yaradılan şərait Bakıdan, digər rayonlardan gətirilən məhsulların qiymətinə müsbət təsir edib: – Çalışırıq ki, həm müştəri razı qalsın, həm də satıcılar. Dövlətimiz biz naxçıvanlılar üçün hər bir şəraiti yaradıb. Amma ki, uzun illər bəzi qanunsuz qadağalarla qarşılaşırdıq. İndi isə bu qadağalar aradan götürülüb. Buna görə dövlət başçısına minnətdarlığımızı bildiririk.

Sahibkar bir məsələni isə xüsusi vurğulayaraq deyir ki, bəzi gömrük rüsumlarının çox olması ticarətin bir çox sahələrinə təsirsiz ötüşmür. Sadə bir misal göstərən müsahibimin sözlərinə görə, Naxçıvan Muxtar Respublikası qardaş Türkiyə və İranla yaxın qonşu olduğu üçün insanlar birsaatlıq məsafədə yerləşən bu ölkələrə gedir və bizim 36 faiz rüsumla gətirdiyimiz bir çox məhsulları oradan öz qiymətinə almaq imkanı əldə edirlər. Ona görə də alıcı ayda bir dəfə və ya bayramdan bayrama süfrəyə qoyduğu bir çox çərəz məhsullarını gəlib buradan almaq ehtiyacı duymur. Bu hal təkcə qida məhsullarında yox, yüngül sənaye məhsullarının satışına da təsir göstərir. Bu da bu sahədə satışda durğunluq yaradır. Biz ticarətçilərin bir xahişi var ki, muxtar respublikada fəaliyyət göstərən sahibkarlara bu sahədə güzəşt edilsin.

Həmsöhbətlərimlə sağollaşır, mən də bazardakı şəraitdən yararlanır, lazım olan tərəvəzləri alır, bazarda rastlaşdığım Naxçıvan şəhər sakini ***Ləzifə Əliyeva***nın da fikirlərini öyrənirəm:

– Dövlət başçısı həmişə Naxçıvan sakinlərinə qayğı ilə yanaşıb və bu gün də belədir. İki il bundan öncə qızıma nişan edəndə mən ətlə eyni qiymətə olan tərəvəzlər, kiloqramı 3, 5 manata meyvələr aldım. Bilmədim ki, nəyi necə eləyim ki, süfrə yaxşı görünsün. Bazarlığa həmişə özüm gəlirəm, qiymətləri müşahidə edirəm və görürəm ki, yavaş-yavaş hər şey öz qaydasına düşür, Gədəbəyin kartofuna, Qəbələnin cəviz, fındığına, şabalıdına rast gələndə gözümü yan çevirmirəm. Bilirəm ki, daha qiymətlər əl yandırmır. Allah Prezidentimizi qorusun ki, həmişə bizim yanımızda olsun.

*Burada satıcı və alıcılarla söhbət etdikdən sonra belə qənaətə gəlirik ki, muxtar respublikamızda aparılan islahatlar insanların yaşayış şəraitinə müsbət təsirini göstərməyə başlayıb. İnanırıq ki, gələcək günlərdə nöqsanlar olan başqa sahələrdə də irəliləyişlərə rast gələcəyik.*

✍ **Ramiyyə ƏKBƏROVA**

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Uşaqlar üçün yaşayış minimumunun artırılması nəticəsində alimentin miqdarını necə artırmaq olar?*

**Cavab:** Ailə qanunvericiliyinə əsasən valideynlər öz uşaqlarını saxlamağa borcludurlar. Uşaqlarını saxlamağın qayda və formasını valideynlər müstəqil müəyyən edirlər. Valideynlər Ailə Məcəlləsinə uyğun olaraq yetkinlik yaşına çatmayan uşaqlarını saxlamaq barədə saziş (aliment ödənilməsi barədə saziş) bağlamaq hüququna malikdirlər. Valideynlər uşaqlarını saxlamadıqda uşaqların saxlanması üçün vəsait (aliment) valideynlərdən məhkəmə qaydasında tutulur.

Aliment ödənilməsi barədə valideynlər arasında saziş olmadıqda, valideynlər (onlardan biri) uşaqları saxlamadıqda və məhkəməyə bu barədə iddia verilmədikdə müvafiq icra hakimiyyəti orqanı yetkinlik yaşına çatmayan uşaqlar üçün aliment tutulması barədə valideynlərə (onlardan birinə) qarşı iddia qaldırmaq hüququna malikdir.

Bu il "Azərbaycan Respublikasında 2023-cü il üçün yaşayış minimumu haqqında" qanuna əsasən yaşayış minimumu ölkə üzrə 246 manat, əmək qabiliyyətli əhali üçün 261 manat, pensiyaçılar üçün 199 manat, uşaqlar üçün isə 220 manat məbləğində müəyyən edilib.

***Sual:** Bəs uşaqlar üçün yaşayış minimumunun artırılmasının aliment məbləğinə təsiri varmı?*

Cavab: Ailə qanunvericiliyimizdə alimentin məbləğinin uşaqlar üçün nəzərdə tutulan yaşayış minimumu miqdarında müəyyən edilməsinə dair hər hansı bir müddəa yoxdur. Lakin məhkəmələrdə aliment tələbinə dair işlərə baxılarkən sabit pul məbləği kimi yaşayış minimumu əsas götürülür. Alimentin məbləği uşaqlar üçün yaşayış minimumuna uyğun təyin edilir. Aliment məbləğinin artmasını istəyən maraqlı tərəf əvvəlcə mediasiyaya müraciət etməlidir. Mediasiyada razılığa nail olunmasa, bu halda məhkəməyə müraciət oluna bilər.

Məhkəmə isə aliment öhdəliyi olan şəxsin əmək qabiliyyəti, maaşı, gəlirləri, sağlamlıq imkanları və sair halları nəzərə alaraq yaşayış minimumunun miqdarından az məbləğdə aliment təyin edə bilər.

Aliment tələbi ilə bağlı məhkəməyə müraciət zamanı vətəndaşlardan rüsum tələb olunmur

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsi***

## Karateçilərimiz ənənəvi turnirdə uğur əldə edib




Bakı İdman Sarayında 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş VII "Arpachay Open" beynəlxalq karate turniri keçirilib. Turnir çərçivəsində kata və kumite turnirlərində 6-13 yaşlı uşaqlar, 14-15 yaşlı yeniyetmələr, 16-18 və 21 yaşadək gənclər, eləcə də böyüklər və veteranlar mübarizə aparıb, həmçinin karateçilər fərdi və komanda çıxışlarında iştirak ediblər.

Naxçıvan idmançıları da medallar uğrunda mübarizə aparıb, uğurlu nəticələr qazanıblar. Təmsilçilərimizdən ən yaxşı nəticə 10-11 yaşlılar arasında çıxış edən Nizami Orucova məxsusdur. O, iki fərqli çəki dərəcəsində də (30 kiloqram, 35 kiloqram) qızıl medal qazanıb. Yusif Orucov bir qızıl və bir gümüş, Xədicə Bayramova bir qızıl medal əldə ediblər. Həşim Nağızadə ikinci, Saleh Qənbərov, Aysu Abbasova, Uğur Zeynallı, Məlahət Həşimli, Yusif Tağıyev və Elton Həsənov üçüncü olublar. Bu nəticələrlə Naxçıvan karateçiləri yarışı 4 qızıl, 2 gümüş və 6 bürünc medalla tamamlayıblar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Naxçıvan şəhəri, Bulqan kəndində yaşamış Bağırova Simuzər Muxtar qızının adına olan JN-246A inventar nömrəli, 10304005 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, 20 Yanvar küçəsi, döngə 1, ev 9-da Məmmədov Allahverdi Oruc oğlunun adına olan evin MH-0055532 nömrəli çıxarışı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 57